# MÜASİR AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ VƏ SUVERENLİYİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR
## *(SOSİAL-FƏLSƏFİ ASPEKTDƏN TƏHLİL II MƏQALƏ)*

**İlqar Abdullayev**
*Azərbaycan Dövlət Dəniz Akademiyası PHŞ*
*Az1000, Bakı şəh., Z. Əliyeva küç., 18*
*E-mail.ilqar.abdullayev@asco.az.*

## FACTORS DETERMINING THE INDEPENDENCE AND SOVEREIGNTY OF MODERN AZERBAIJAN
### *(ANALYSIS FROM THE SOCIOl-PHILOSOPHICAL ASPECT II ARTICLE)*

**Ilqar Abdullayev**

**Abstract**

Since national self-consciousness and self-expression are considered the fundamental basis and prerequisite for state independence, the article analyzes the important factors that determine the national independence of the modern Azerbaijani state.

National independence begins with the declaration of independence and ends with the building of a sovereign state.

The emergence of independence as an internal need of the people and the result of political institutionalization is closely connected with the formation of worldview values and their transformation into a national way of thinking. The national idea in this sense is an important ideological dimension of independence. For many years, the struggle for the state independence of Azerbaijan was based on the idea of national unity and served to shape the mood of independent statehood. At the beginning of the last century, the struggle for independent statehood, carried out by the Azerbaijani intelligentsia with great self-sacrifice and determination, paved the way for the dominance of this idea in the public mind, in fact, formed the basis for the idea of state independence.

***Key words:*** the idea of state independence, national development policy, Azerbaijanism.

## MÜASİR AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ VƏ SUVERENLİYİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR
### *(SOSİAL-FƏLSƏFİ ASPEKTDƏN TƏHLİL II MƏQALƏ)*

**İlqar Abdullayev**

**Xülasə**

Milli müstəqillik müstəqilliyin elan olunması ilə başlayır və sonda suveren dövlət quruculuğu ilə yekunlaşır. Müstəqilliyin xalqın daxili tələbatı kimi meydana gəlməsi və siyasi təsisatlanma ilə nəticələnməsi ideoloji dəyərlərin formalaşması və milli düşüncə tərzinə çevrilməsi ilə sıx əlaqədardır. Milli ideya, bu mənada, müstəqilliyin əhəmiyyətli ideoloji xarakter daşıyan ölçüsü rolunda çıxış edir. Azərbaycanın dövlət müstəqilliyini qazanması uğrunda mübarizə uzun illər milli-birləşdirici ideyaya istinad etmiş, müstəqil dövlətçilik əhval-ruhiyyəsinin formalaşmasına xidmət göstərmişdir.

***Açar sözlər:*** dövlət müstəqilliyi, milli inkişaf siyasəti, Azərbaycançılıq ideyası.

## ФАКТОРЫ, ОПРЕДЕЛЯЮЩИЕ НЕЗАВИСИМОСТЬ И СУВЕРЕНИТЕТ СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНА
### (АНАЛИЗ СОЦИАЛЬНО-ФИЛОСОФСКОГО АСПЕКТА; II СТАТЬЯ)

**Илгар Абдуллаев**

***Аннотация***

Национальная независимость начинается с провозглашения независимости и заканчивается построением суверенного государства.

Возникновение самостоятельности как внутренней потребности народа и результат политической институционализации тесно связано с формированием мировоззренческих ценностей и превращением их в национальный образ мышления. Национальная идея в этом смысле выступает важным идеологическим измерением независимости. На протяжении многих лет борьба за государственную независимость Азербайджана опиралась на идею национального единства и служила формированию настроения независимой государственности.

***Ключевые слова:*** идея государственной независимости, национальная политика развития, азербайджанства.

**Giriş.** Müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv bir xalq və millət üçün ən müqəddəs bir nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunda illərlə mühazirə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir! **[1]**

Azadlıq təbii zərurətləri dərk etmək əsasında özümüzə və xarici təbiətdə hakim olmaqdan ibarətdir, buna görə də azadlıq tarixi inkişafın zəruri məhsuludur! **[2]** Bundan başqa azadlığı məqsədəuyğun fəaliyyətin həyata keçirilməsi imkanı kimi də başa düşmək lazımdır.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycanın rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı. Elmi əsaslarla, beynəlxalq hüququn normalarına və prinsiplərinə müvafiq müstəqil dövlət quruculuğu prosesi başlandı.

Heydər Əliyevin rəhbərliyi ilə, hər şeydən əvvəl, Milli Ordunun formalaşdırılması Azərbaycanın milli mənafelərini, torpaqlarını qoruya biləcək nizami silahlı qüvvələrin yaradılması, digər tərəfdən bütün mümkün siyasi diplomatiyadan istifadə etməklə ölkəni beynəlxalq araneya çıxarılması baş verdi.

***Əsas hissə***. Azərbaycan dövlətçiliyinin mövcudluğuna ciddi təhlükə yaradan 1994-cü il oktyabr, 1995-ci il mart hadisələrində dövlət çevrilişinə cəhdlərin qarşısı məhz Heydər Əliyevin qətiyyəti nəticəsində qarşısı alındı və dövlət müstəqlliyi qorunub saxlanıldı, dövlət təsisatları və dövlət quruculuğu istiqamətində əsaslı fəaliyyətə zəmin yaradıldı.

Bu zəminin əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiya təşkil etdi. Bu andan sonra Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi - demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu proseslərini həyata keçirmək istiqamətində fəaliyyətə başlamaq mümkün oldu. Məhz Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra müstəqillik, dövlətçilik, demokratiya, milli-tərəqqi, dünyəvilik kimi dəyərlərin azərbaycançılıq fəlsəfəsinə hopdurulmuş siyasi ideologiyanın əsası qoyuldu.

Hər bir dövlətin, o cümlədən, Azərbaycanın müstəqilliyi, dövlət quruçuluğu bir sıra mühüm daxili və xarici amillərlə də şərtlənir. Azərbaycan xalqı SSRİ-nin parçalanması ilə əlaqədar yaranan tarixi şəraitdən istifadə edərək yenidən 1991-ci ildə müstəqilliyini bir daha elan etdi. Ümmummilli Lider bu barədə 1993-cü ildə çıxışlarının birində deyirdi ki, “... Müstəqilliyi qazanmaq, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi qorumaq, əldə saxlamaq, möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq, vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat şəraiti təmin etmək daha çətindir.” **[3]**

Azərbaycan dövlətçilik tarixi nümunəsində təcrübə göstərir ki, müstəqillik əldə etmək, milli dövlət quruculuğu bizim fikrimizcə də əsasən aşağıdakı 3 şərtlə mümkündür: **[4]** *Daxili və xarici şəraitin yetişməsi; *Müstəqilliyi əldə etmək, onu yaratmaq üçün xalqdın milli iradəsini ortaya qoyulması və milli məqsəd naminə birləşməsi; *Həmin dövrdə vahid milli ideyanın və iradənin daşıyıcısı rolunu oynayan və xalqı bu ideya ətrafında səfərbər edə bilən milli liderin mövcudluğu və yaxud milli mübarizə hərakatının gedişində meydana çıxması;

Azərbaycan bir cəmiyyət olaraq inkişaf tarixinə nəzər salsaq görərik ki, onun bir dövlət kimi müstəqilliyi özlüyündə bir neçə inkişaf mərhələsi keçməklə tədricən formalaşmışdır.

Birinci mərhələ 1990-cı illərin əvvəllərində SSRİ-nin süqutunun qarşısıalınmaz prosesə çevrilməsi ilə baş verdi. Nəticədə regional və beynəlxalq aləmdə yaranan tarixi şərait, o cümlədən, Ermənistan-Azərbaycan münaqişəsi zəminində Azərbaycanda əvvəlcə kortəbii xalq hərəkatına, 1990-cı ildən sonra isə artıq məqsədyönlü milli-azadlıq hərəkatına təkan verildi. Lakin həmin dövrdə yenicə yaranmış dövləti idarə edən siyasi liderlərin müstəqillik və milli dövlət iradəsinin zəifliyi nəticəsində ölkədə sabitliyi və qanunçuluğu bərpa etmək mümkün olmadı və nəticə etibarilə siyasi

mübarizə vətəndaş qarşıdurması müstəvisinə keçid aldı. Bütün bu kimi proseslər Azərbaycanın dövlətçiliyini ciddi təhlükə altına saldı və insanların müstəqil dövətçiliyə inamını sarsıtdı. **[5]**

İkinci mərhələyə isə Azərbaycanın 18 oktyabr 1991-ci ildə müstəqillik haqqında Konstitusiya Aktını etməsindən başlayaraq 1993-cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinə qədərki dövrü aid etmək olar. **[4]**

Artıq bu dövrdə Azərbaycanın müstəqil, mill dövlət quruculuğu prosesinə rəhbərlik edə biləcək iradəyə malik milli liderə ehtiyac duyulurdu. Bu lider 1993-cü ildə xalqın tələbi ilə Bakıya dəvət olunan, elə həmin il oktyabrın 3-də ölkə prezidenti seçilən Heydər Əliyev oldu. Beləliklə, Heydər Əliyev olkənin milli inkişafını istiqamətləndirən müstəqil dövlət quruculuğunu inkişaf etdirə biləcək milli müstəqilliyin üçüncü əsas şərtini vahid lider tələbini təmin etdi. **[5]**

Müstəqilliyi şərtləndirən milli inkişaf siyasətinin əsas xarakterik əlamətlərindən biri və ən mühümü bütün milli resursları - maddi və mənəvi sərvətləri səfərbər edərək ölkənin ümumi inkişafına yönəldilməsi taktikasıdır. Bu məqsədlə Heydər Əliyev 1994-cü ildə dünyanın aparıcı ölkələrini təmsil edən transmilli neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz resusrslarının birgə hasilatını və işlənilməsini, dünya bazarlarına ixrac edilməsini hədəfləyən "Əsrin müqaviləsi"ni imzalamağa nail oldu. Bu müqavilə, bir tərəfdən ölkənin milli inkişafı üçün lazimi maddi resursların əldə olunmasını, digər tərəfdən isə onun beynəlxalq aləmə çıxararaq həm siyasi, həm də iqtisadi cəhətdən inteqrasiyasını şərtləndirdi.

Müstəqilliyi şərtləndirən milli inkişaf siyasətinin müəyyənləşməsi, həmçinin Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində də mühüm funksiya yerinə yetirmişdir. Bu istiqamətdə müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, onun müstəqiliyinin, dönməzliyinin təmin olunması və dövlətçilik atributlarının formalaşdırılması ilə yanaşı Azərbaycan xalqının dövlətçilik ənənələrinin qədim köklərinin üzə çıxarılması və müasir tarixi dəyərlərlə birləşdirilərək milli şüurun bərpası kimi əvəz olunmaz işlər aparılmışdır. Müstəqilliyi şərtləndirən əsas xüsusiyyətlərdən biri olan etnik mənsubiyyəti çox da qabartmadan ümumivətəndaşlıq, Azərbaycana mənsubluq, Azərbaycan dilinə və mədəniyyətinə sevgi, ümumi və bərabər məsuliyyət hissi daşımaq kimi prinsiplər əsasında milli inkişafa xidmət edə biləcək azərbaycançılıq ideologiyası formalaşdırıldı. Həmçinin azərbaycançılığa yeni məzmun veriləcək və bu ideologiya ölkənin mill-etnik xüsusiyyətlərinə, müasir inkişafının tələblərinə və dünyanın yeni şəratinə uyğunlaşdırıldı.

***Nəticə.*** Yuxarıda verdiyimiz təhlildən və araşdırmalarımızdan, fikirlərimizi əsaslandırmaq üçün istinad etdiyimiz mənbələrdəki yanaşmalardan da göründüyü kimi Azərbaycan dövlətçiliyinin müstəqilliyini şərtləndirən, onun daimi inkişafını təmin edən əsas hədəfləri - siyasi, iqtisadi, sosial və mədəni nailiyyətləri daha da möhkəmləndirmək, indidən belə də həm siyasi, həm də iqtisadi sahədə liberal, rəqabətədavamlı, dinamik və innovativ yönümlü, milli ruhlu siyasətin və iqtisadiyyatın formalaşdırılması, sosial sahədə optimal inkişaf modelinin yaradılması, mədəniyyətin inkişafında tətbiqi istiqamətlərin inkişaf etdirilməsidir.

Azərbaycanın gələcək milli inkişaf siyasətinin əsas və uzunmüddətli prespektivləri ilə bağlı vahid konsepsiyasının hazırlanması, strateji inkişafın gələcək istiqamətlərinin, prinsip və vəzifələrinin müəyyənləşdirilməsi müasir Azərbaycan dövlətinin qarşısında dayanan əsas vəzifələrdən biri hesab olunur. Bu Konsepsiyada Azərbaycan Respublikasını müstəqilliyinin prinsiplərini aşağıdakı kimi müəyyənləşdirmişdir: *Güclü dövlət və səmərəli dövlət idarəçiliyi; *İctima-siyasi sabitliyin yaradılması və qorunması; *Çevik iqtisadi siyasətin yürüdülməsi və iqtisadi inkişafa nail olunması; *Vətəndaş birliyi və cəmiyyətin bölünməzliyi prinsipi; *Milli iradəli, sağlam əqidəli vətəndaşların tərbiyə edilməsi və vahid ideya ətrafında birləşdirilməsi; *Balanslı xarici siasət və tarazlı daxili inkişaf.

### İstifadə olunmuş ədəbiyyat

1. H.Ə.Əliyev: Müstəqiliyimiz əbədidir. Elektron cülliyat, http://heydaraliyev.preslib.az
2. A.M.Şükürov: Fəlsəfə, dərslik, Bakı-Elm,1997. səh. 268.
3. H.Ə.Əliyev: Müstəqiliyimiz əbədidir. Elektron külliyyat, http://heydaraliyev.preslib.az
4. S.S.Xəlilov: Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi.// Heydər Əliyev və Azərbaycan. Bakı. 2008.
5. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi//Azərbaycan qazeti., 26 may 2011.